QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Mehriban Əliyeva: Birinci vitse-prezident kimi 9 il**



3


№ 015 (7425)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

24 fevral 2026-cı il.
Qiyməti 1 manat


# Sülh Şurasının ilk iclası...




2

# ABŞ-İran:

## hədədən müharibəyə bir addım qalır...



4

**Baharın ilk çərşənbəsi - Su çərşənbəsi**




6

**Atmosfer təhlükədədir: yeni araşdırma deyir ki...**



7

**Miras sahiblərinin borca görə məsuliyyəti: qanun nə deyir?**



8

**Təxribatçı antimilli sürüyə erməni lobbisinin dəstək verdiyi üzə çıxdı**



7

**Süfrəndə yoxsula yerin yoxdursa...**



4

# Sülh Şurasının ilk iclası...

İlham Əliyevin Vaşinqton şəhərində keçirilən Sülh Şurasına dəvət olunması təkcə diplomatik protokol hadisəsi deyil, həm də Azərbaycanın beynəlxalq aləmdə artan rolunun və dövlət başçısının şəxsi siyasi nüfuzunun göstəricisi kimi qiymətləndirilə bilər. Müasir geosiyasi reallıqlar fonunda belə bir dəvət ölkənin regional və qlobal miqyasda artan təsir imkanlarının rəmzi xarakter daşıyır. Son illər Azərbaycan balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ilə diqqət çəkir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə həm Qərb, həm də Şərq ölkələri ilə qarşılıqlı hörmətə və milli maraqlara əsaslanan münasibətlər qurmağa nail olub. Bu siyasət nəticəsində Azərbaycan Cənubi Qafqazda sabitləşdirici aktor kimi qəbul olunur. Vaşinqton kimi qlobal siyasi qərarların qəbul edildiyi məkanda keçirilən Sülh Şurasına dəvət olunmaq, Azərbaycanın sülh təşəbbüslərinə və regional təhlükəsizliyə verdiyi töhfənin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir. Bu, həm də ölkənin enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və multikulturalizm sahəsində həyata keçirdiyi siyasətin yüksək qiymətləndirilməsi deməkdir.




### Sülh gündəliyi və regional sabitlik

Azərbaycan postmünaqişə dövründə regionda davamlı sülhün təmin olunması istiqamətində konkret təşəbbüslərlə çıxış edir. Rəsmi Bakı dəfələrlə Cənubi Qafqazda yeni əməkdaşlıq platformalarının yaradılmasını və kommunikasiyaların açılmasını təklif edib. Bu yanaşma yalnız regional deyil, daha geniş coğrafiyada sabitliyə xidmət edir. İlham Əliyevin beynəlxalq platformalarda çıxışları daim sülh, qarşılıqlı hörmət və beynəlxalq hüququn prinsiplərinə əsaslanır. Onun Vaşinqtondakı Sülh Şurasına dəvəti, Azərbaycanın konstruktiv mövqeyinə verilən siyasi qiymət kimi də dəyərləndirilə bilər.

### Enerji və qlobal təhlükəsizlik amili

Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaş kimi çıxış edir. Xəzər hövzəsinin zəngin enerji ehtiyatlarının dünya bazarına təhlükəsiz və sabit şəkildə çıxarılması ölkənin strateji əhəmiyyətini artırıb. Bu kontekstdə Azərbaycanın etibarlı tərəfdaş imici formalaşıb. Enerji diplomatiyası ilə yanaşı, humanitar təşəbbüslər, beynəlxalq forumlara ev sahibliyi və mədəniyyətlərarası dialoqun təşviqi də ölkənin müsbət imicinə töhfə verir. Bütün bunlar dövlət başçısının qlobal səviyyədə qəbul edilən siyasi fiqur kimi mövqeyini gücləndirir.

### Liderlik faktoru

İlham Əliyevin uzunmüddətli strateji baxışa əsaslanan idarəetmə modeli ölkənin siyasi və iqtisadi sabitliyini təmin edib. Daxili sabitlik isə xarici siyasətdə ardıcıllıq və etibarlılıq yaradır. Məhz bu amillər onun beynəlxalq platformalara dəvət olunmasını şərtləndirən əsas faktorlardandır. Vaşinqtonda keçirilən Sülh Şurası kimi nüfuzlu tədbirlərdə iştirak etmək, yalnız dövlət başçısının deyil, bütövlükdə Azərbaycanın diplomatik uğurudur. Bu, ölkənin artan beynəlxalq çəkisinin, regional liderliyinin və qlobal dialoq proseslərində fəal rolunun bariz nümunəsidir. Beləliklə, İlham Əliyevin Vaşinqtona Sülh Şurasına dəvət olunması Azərbaycanın beynəlxalq münasibətlər sistemində qazandığı mövqenin və dövlət başçısının siyasi nüfuzunun məntiqi nəticəsidir. Bu hadisə Azərbaycanın sülh, əməkdaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan siyasətinin beynəlxalq səviyyədə dəstəkləndiyini göstərir və ölkənin gələcək diplomatik perspektivləri baxımından mühüm əhəmiyyət daşıyır.

### İlk görüş...

Donald Trampın rəhbərliyi altında Sülh Şurasının ilk iclası ABŞ paytaxtında keçirildi. Mediada yayılan məlumatlara görə, iclasda Qəzza zolağının yenidən qurulması müzakirə olundu. Argentina, Macarıstan və bir sıra postsovet ölkələrinin liderləri Ağ Evin dəvətinə cavab versə də, əksər Qərb liderləri bu dəvətə biganə yanaşıblar və ya Vaşinqtona müşahidəçilər göndəriblər. Təxminən bir ay əvvəl Davosda keçirilən Dünya İqtisadi Forumu çərçivəsində yaradılan Sülh Şurasının iclası Donald Trampın adını daşıyan və Vaşinqtonda yerləşən ABŞ Sülh İnstitutunda keçirilib. Ağ Ev bu görüşdən həm də Qəzza zolağında atəşkəs sazişinin ikinci mərhələsinin həyata keçirilməsini irəli aparmaq üçün istifadə etmək istəyirdi. Bu, keçid texnokratik administrasiyasının yaradılmasını, tam demilitarizasiyanın başlanması və əhəmiyyətli maliyyələşdirmə tələb edən bölgənin yenidən qurulmasını nəzərdə tutub. Trampın özünün də elan etməyə tələsdiyi kimi, dəvət olunmuş təxminən iyirmi ölkənin lideri Qəzzanın yenidən qurulması və sakinlərinə humanitar yardım üçün 7 milyard dollar ayırmaq barədə razılığa gəliblər. Sülh Şurasının üzvləri Qəzzaya ”Beynəlxalq Sabitləşdirmə Qüvvələrində” və polisdə xidmət etmək üçün minlərlə insan göndərəcəklər. Tramp sosial media platformasında (Truth Social) yazıb: ”HƏMAS-ın tam və dərhal demilitarizasiyaya sadiqliyini təsdiqləməsi vacibdir”. Trampın sədrlik etdiyi Şura Qəzzada müharibəyə son qoymaq məqsədi ilə yaradılıb, lakin onun nizamnaməsi daha geniş bir məqsədi nəzərdə tutur: dünyada silahlı münaqişələrin həlli. Lakin nizamnamənin preambulasında dolayı yolla BMT-ni tənqid edir və Sülh Şurasının ”çox vaxt uğursuzluğa düçar olan yanaşmalar və qurumlardan kənara çıxmaq üçün cəsarətə” sahib olmalı olduğu bildirilir.

### ”Sülh Şurası” nədir?

”Sülh Şurası” anlayışı rəsmi beynəlxalq təşkilat kimi BMT səviyyəsində tanınmış və universal hüquqi statusa malik qurum deyil. Bu termin müxtəlif kontekstlərdə istifadə oluna bilər: Regional təşəbbüslər və ya koalisiyalar, qeyri-hökumət platformaları, müxtəlif dövlətlərin təşəbbüsü ilə yaradılan siyasi dialoq formatları. Yəni hazırda ”Sülh Şurası” adlı qurum BMT-nin yerini tuta biləcək qlobal legitim struktura malik deyil. Bəs alternativ olmaq mümkündürmü? BMT-yə alternativ olmaq üçün bir qurum aşağıdakı xüsusiyyətlərə malik olmalıdır: Qlobal üzvlük və legitimlik - çoxlu sayda dövlət tərəfindən tanınma, hüquqi mexanizm - beynəlxalq hüquqa əsaslanan qərarvermə sistemi, icra mexanizmi - qərarların həyata keçirilməsi üçün real imkanlar, sabit maliyyə və institusional baza. Hazırda bu kriteriyalara cavab verən yeganə universal təşkilat məhz Birləşmiş Millətlər Təşkilatıdır.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası Sülh Şurasına Qəzzada Müvəqqəti Təhlükəsizlik Qüvvələri (MTQ) yaratmaq səlahiyyəti verib. BMT-nin məlumatına görə, MTQ Qəzzanın sərhədlərinin təhlükəsizliyini təmin etmək və ərazidə sülhü qorumaqdan məsul olacaq.

***V.VƏLİYEV***

# Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 23-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı Fərzanə Sadiqin ötən il ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü məmnunluqla xatırlandı. Dövlətimizin başçısı bir müddət əvvəl İran Prezidenti Məsud Pezeşkianla telefon danışığını xatırladaraq, həmin telefon söhbəti əsnasında dost ölkələr kimi Azərbaycanla İran arasında qarşılıqlı əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu dedi.

İkitərəfli gündəliyin genişlənməsini məmnunluqla qeyd edən Prezident İlham Əliyev Azərbaycanla İranın birgə icra etdiyi layihələrin həm ölkələrimiz, həm də region üçün geniş imkanlar açacağını vurğuladı.



Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində bütün bu məsələlərin müzakirə ediləcəyinə və səfərin yaxşı nəticələrinin olacağına ümidvarlığını bildirdi. Azərbaycana yenidən gəlməsindən məmnunluğunu ifadə edən Fərzanə Sadiq qəbula görə dövlətimizin başçısına minnətdarlıq etdi. O, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı və vurğuladı ki, İran Prezidenti Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət verir. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi. Fərzanə Sadiq ölkələrimiz arasında tarixi, dini və mədəni əlaqələrin mövcud olduğunu vurğuladı.

Söhbət zamanı Bakıda keçiriləcək ”Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadiyyat, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyası”nın 17-ci iclasının əhəmiyyətinə toxunuldu, Şimal-Cənub nəqliyyat dəhlizi, Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün inşası və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

# Mehriban Əliyeva:

## Birinci vitse-prezident kimi 9 il

Artıq Mehriban xanım Əliyevanın Birinci vitse-prezident seçilməsindən 9 il ötür. Hər birimizin sevimlisi, gözəl, nümunəvi, zövqlü, əsl Azərbaycan qadını Mehriban xanımı ürəkdən təbrik edir, Ona işlərində uğurlar, müvəffəqiyyətlər arzulayırıq. O, daim millətinin yanında-kədərində, sevincində onunla birlikdə olub. Xüsusilə Qarabağsız illərin acısını xalqı ilə birgə yaşayıb, onun təsəllivericisi olub. Nə xoşdur ki, Böyük Zəfərimiz də bu 9 ilin içərisindədir. Zəfərin hər anını da Mehriban xanım xalqı ilə birgə yaşadı: Zəfərə sevindi, itkiləri ana qayğısı, fəryadı ilə qarşıladı. Mehriban xanım ümumilikdə humanist addımları, xeyirxah əməlləri, ictimai fəaliyyəti ilə hər zaman saygı bəslədiyimiz Birinci xanımdır. Bu gün həmin fəaliyyətlərin hər birini yüksək qiymətləndirir, Ona can sağlığı, uzun ömür arzulayırıq. Mehriban Əliyeva haqqında yazdığın bir yazını, hansı ki o yazı üçün oxuculardan, ziyalılardan çoxsaylı xoş zənglər, mesajlar almışdım, bu gün həmin yazını yenidən paylaşmaqla yenə də nə yaxşı ki, Bir Qadın tanıdıq, demək istəyirəm.



### Bir QADIN tanıdıq...

Bir QADIN tanıdıq: ləyaqətli ailənin övladı, ləyaqətli ailənin gəlini, həyat yoldaşı, ana, ziyalı, ictimai xadim. Ən əsası isə gözəl insan, gözəl xanım. Bir QADIN tanıdıq... Zərifliyi həm də xarakterinə yansıyan, incəliyi ruhuna da hopan, gözəl baxışları həm də qəlbinin mərhəmətini ifadə edən QADIN... Bir QADIN tanıdıq... Zərif çiyinlərində Azərbaycanın-qədim bir dövlətin milli-mənəvi, mədəni irsini daşımaqla dünya ölkələrinə təqdim edən, bu dəyərlərin əbədiyaşar olmasına can yandıran QADIN. Bir QADIN tanıdıq... Böyük bir dövlətə 20 ildən artıq ləyaqətlə rəhbərlik edən dövlət başçısının həyat yoldaşı kimi daim Onun yanında olan QADIN.

Bizdə belə bir deyim var ki, hər bir qadının arxasında güclü bir kişi olmalıdır. Bu deyimin sonunu belə gətirsəydik, daha doğru olardı: hər bir kişinin yanında da güclü bir qadın olmalıdır. Bu güc sevgidir. Bu güc qadın hərarəti ilə uzunömürlü olan ailədir. Bu güc hər bir kişinin tutduğu mövqedə rahatlıqla çalışmasıdır. Çünki ağır bir iş gününün sonunda onu isti bir yuva, o yuvada sevdiyi, hörmət və saygı bəslədiyi qadın-həyat yoldaşı və övladları gözləyir. Bu güc ailədir. İnsanın iş və şəxsi həyatının tamlığı olan ailə. Hansı ki, zaman da sübut edib ki, ailə olmadan insan həyatın ən yüksək pilləsinə qalxsa belə, natamamdır...Bir QADIN tanıdıq: ləyaqətli bir ailənin övladı, ləyaqətli bir ailənin gəlini, həyat yoldaşı, ana, ziyalı, ictimai xadim-Mehriban xanım Əliyeva.

### Ləyaqətli ailənin övladı

Bir QADIN tanıdıq... Ləyaqətli bir ailənin övladı QADIN. Azərbaycanda mətbuatın, jurnalistikanın, jurnalist ordusunun formalaşmasında böyük əməyi olan, jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının əziz, unudulmaz müəllimi, hər bir jurnalistin dəyərlisi Nəsir İmanquliyevin və yazıçı, ədəbiyyatşünas, onlarla əsərin müəllifi, lakin "Bir gəncin manifesti" ilə Azərbaycan gəncliyinin sonsuz sevgisini qazanan Mir Cəlal Paşayevin nəvəsi QADIN. Ölkəmizdə radiofizika sahəsində böyük nailiyyətlərə imza atan Arif Paşayev və şərqşünaslıq və ədəbiyyatşünaslığın "anası" Aidə İmanquliyeva kimi ziyalıların qızı QADIN...Kök, nəsil, ailə güzgüdür. Kök, nəsil ailə nədir, sən də osan, başqa cür mümkün deyil. Bu qədər ləyaqətli insanların əhatəsində təbii ki, Mehriban xanım kimi dünyaya fərqli baxan və dünyanı fərqli görmək istəyən, ziyalılığın ali mərtəbəsində dayanan, baba-nənələrdən, ata-anadan mənəvi dəyərləri, ən əsası isə insanlığı əxz edən QADIN yetişəcəkdi. Bir vaxtlar bu baba-nənələrin sığallı qətiyyəti, mərhəməti, əzmi damla-damla Onun dünyasına sızdırıb zamanında bu QADINın gücünə çevirəcəkdi. Bu güc baba-nənə, ata-ana mənəviyyatının, ziyalılığının, ictimai fərqliliyinin davamçısı kimi bizə Mehriban xanım Əliyevanı tanıdacaqdı.Bu kökdə həm də bir azərbaycanlı məxsusluğu var axı. Azərbaycan qadınının müasir dövrdə davamçısı olmaq da bu məxsusluqdan irəli gəlir. Şücaət, qəhrəmanlıq, hökmdar, hətta sərkərdə, döyüşçü, diplomat olmaq qabiliyyətini çoxəsrlik tariximizə yazmağı bacaran, kişilərdən ağlı-zəkası, hünəri ilə heç də geridə qalmayan qürur yerimiz olan Azərbaycan qadını.

### Ləyaqətli ailənin gəlini

Bir QADIN tanıdıq... Gözəl ailə dəyərləri ilə birlikdə Ümummilli Liderimiz Heydər Əliyevin və dəyərlimiz Zərifə xanımın evinə gəlin köçən QADIN. Həyatını Azərbaycan xalqının müstəqilliyinə, bu müstəqilliyin daimiliyinə, ölkənin inkişafına həsr edən Ulu Öndərimizin və insanlara nur paylayan, hər bir xəstəsinin ağrılarını onunla birlikdə yaşayan, xəstəsinin həm həkimi, həm də ən yaxını olan Zərifə xanımın gəlini olmaq böyük şərəf idi. Bu şərəfə bu gün haqqında qürurla danışdığımız Mehriban xanım nail oldu. Çünki xalqımızın belə bir deyimi də var: gəlin ocağa gələr. Bəli, Mehriban xanım öz ata ocağı ilə eyni gücdə, eyni istilikdə, hərarətdə olan ocağa gəlmişdi. Bu ocaqda Onun sevdiyi, könlünü verdiyi, həyatının birgə davamı üçün əhd-peyman etdiyi İlham Əliyev böyümüşdü. Bu ocaqda gələcəkdə Azərbaycanda sönən onlarla ocağı yenidən alovlandıran övlad tərbiyə almışdı. Bu ocaqla Mehriban xanımın ata ocağı ona görə oxşar idi ki, hər ikisində Azərbaycan naminə insanlar yaşayırdı. Onların hər birinin amalı, qayəsi Azərbaycanın bu günü və gələcəyinin işığı üçün idi.

Bu ocaqda hər bir azərbaycanlının Prezidenti olan cənab İlham Əliyev ailənin dəyərləri müstəvisində böyüdülmüşdü. Elə ata vəsiyyətinin bir oğul üçün nə qədər əhəmiyyətli olması da Ona ailəsində aşılanmışdı. O vəsiyyət ki, onu 2020-ci ilin 44 günlük Vətən müharibəsində- 8 noyabrda-Şuşanın işğaldan azad olunduğu gün dövlətimizin başçısının dilindən eşitdik. Eşitdik ki, Ulu Öndərimiz oğlunun qarşısında bir vəzifə qoyub. Bu, bir vəzifə ilə yanaşı, həm də ata vəsiyyəti idi: torpaqlarımızın azad edilməsi ilə bağlı vəsiyyət. Elə məhz bu vəsiyyətin mövzusu bir ailənin nə qədər vətənpərvər olduğunun, bu dövlət və xalq naminə yaşadığının göstəricisi idi.

### Həyat yoldaşı və ANA

Bir QADIN tanıdıq... Həyatını Ulu Öndərin siyasi və mənəvi varisi, dövlətimizə 20 il ərzində ləyaqətlə rəhbərlik edən cənab İlham Əliyevlə birləşdirən QADINı. Ömür-gün yoldaşına qırılmaz tellərlə bağlı, sədaqət mücəssəməsi olan, əxlaqi və mənəvi dəyərləri bu ocağın şöləsi QADINı. Zərifliyi ilə zövqü bir harmoniyada ürək kimi döyünən, yeri gələndə kəlağayılı, yeri gələndə milli, yeri gələndə ən müasir dəbli, yeri gələndə olduğu məkana uyğun geyimlə ətrafa qadın gözəlliyi saçan QADINı tanıdıq. Səsinin tonu ilə danışıq mimikaları üzündə bir başqa gözəllik yaradan Mehriban xanımı tanıdıq. Belə bir qadının həyat yoldaşı olmaqda dövlətimizin başçısının xoşbəxtliyini və şansını gördük.Bir QADIN tanıdıq... Əliyevlər ocağına Leylanı, Arzunu, Heydəri bəxş edən, bu ocaqda ANA adına layiq görülən QADINı tanıdıq. O ocağa bu QADINın laylaları ilə nəvə sevinci bəxş olundu. Bu ocaqda nəvələrin varlığı ilə ən gözəl anlar, unudulmaz xatirələr yaşandı. Onların gəlişi ilə bu ocağın çırtıltısı çoxaldı, çünki onlar evə qucaq dolu sevinc, gülüş, qəhqəhə gətirmişdilər.Bir Qadın tanıdıq... Övladlarını hər iki baba-nənələrinin adına layiq tərbiyə edib böyüdən QADIN. Onların qayğısı ilə yaşayan, hər birinin hər çağırışına "can" deyən QADIN. Hər birinin ilk qığıltısına, ilk addımına görə dünyalar bəxş olunan QADIN. Daha sonra uşaqların məktəb həyatı, dərslər, tapşırıqlar, oxumaq, təhsil almaq. Hər bir ana olan bilir ki, bu, tək ananın nəzarəti ilə mümkündür. Uşaq xəstələndimi, bir yeri ağrıdımı, onlarla adam olsun, bunun ağırlığını, əziyyətini ana qədər çəkən olmur. Bu səbəbdən də əsl ANA olan QADINı-Mehriban xanımı tanıdıq. Üç övladını layiqincə böyüdən, qayğıları ilə gecəni səhər, səhəri axşam edən, bu gün zəhmətinin bəhrəsi ilə qürur duyan QADINı tanıdıq.

### Ziyalı və ictimai xadim

Bir QADIN tanıdıq... Ziyalı, elmli, maarifli bir QADIN. "Ağlım kəsəndən bəri başqa alternativim olmayıb. Anam şərqşünas-alim idi. Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna başçılıq etmişdir. Lakin məktəbi bitirdikdən sonra sənədlərimi tibb institutuna vermişdi, çünki çox istəyirdi ki, həkim olsun. Nəyə görəsə valideynləri onu uzun müddət dilə tutmuşlar və nəticədə o, görkəmli filoloq olmuşdur. Bax onun bu baş tutmamış arzusu mənim seçimimi müəyyənləşdirmişdir. İxtisas seçimimə isə İlhamın anası - həkim-oftalmoloq Zərifə xanım təsir göstərmişdir" deyən, ailəni, ailə dəyərlərini üstün tutan və qiymətləndirən QADINı tanıdıq. Anasının arzusunu, qayınanasının yolunu davam etdirən Mehriban xanımı tanıdıq. Dünyaya həkim, həm də göz həkimi gözü ilə baxan, bəzən dünyanın korluğuna üsyan edən, bəzən bu korluğu müalicə etməyə çalışan, bəzən gözlərin açılmasına, haqqı, ədaləti görməsinə yardımçı olan, bəzənsə gözlərinin açılması mümkün olmayanlara bu ədaləti başqa yollarla anladan QADINı tanıdıq.

Hər zaman həyat yoldaşının yanında olacaq, dövlətimizin başçısına bütün işlərdə kömək edəcək QADINı tanıdıq. Bu qadın çox keçməyəcəkdi ki, bir həyat yoldaşı, ana missiyasından Azərbaycanın Birinci Xanımı titulunadək ucalıb Birinci vitse-prezident kimi dövlət işlərində də həyat yoldaşının yanında olacaqdı. Onun sədaqətli həyat yoldaşı olması ilə yanaşı, həm də sadiq dost, ləyaqətli iş yoldaşı olduğunu görəcəkdik. Gündəlik həyatda, hətta müharibə meydanında həyat yoldaşının yanında görəcəkdik. Bu zəriflik mücəssəməsi QADIN milli ordumuzun uni formasını geyinib həyat yoldaşı ilə yenicə azad edilmiş torpaqlarımızda gəzərkən, daşı daş üstündə qalmayan yurdlarımızın inkişafına öz zövqündən, məharət və bacarığından töhfə verərkən həm də qorxmaz, hünərli bir QADINı tanıdıq.44 günlük müharibə zamanı hər şəhidə, hər qaziyə balası qədər yanan, hər bir qarış torpaq azad edildikcə sevincini, qürurunu xalqı ilə paylaşan, müharibədə sağlamlığını itirən iştirakçıları xəstəxanalarda tez-tez ziyarət edən Mehriban Əliyevanı-qadınlığın, zərifliyin, mərhəmətin, təəssübkeşliyin ifadəsini tanıdıq. Bu gün Qarabağ və Şərqi Zəngəzurun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da yaxından iştirakı ilə bərpa olunmasını, məcburi köçkünlərin ata-baba ocaqlarına qayıdışını böyük sevinclə qarşılayan və bütün bu işlərdə həyat yoldaşının yanında olan Mehriban xanımı tanıdıq. Nə yaxşı da ki, bu QADINı tanımışıq. Hər bir Azərbaycan vətəndaşına diqqət və qayğı ilə yanaşan, yüzlərlə xəstənin şəfası, yüzlərlə müraciəti yerindəcə həll edən, humanistliyin, insanpərvərliyin rəmzi QADINı.

### Şəkillər "danışır"...

Bəzən uzaqdan-uzağa da insanı tanımaq mümkündür. Təbii ki, haqqında eşitməklə. Lakin budur, qarşımda yüzlərlə şəkli var Mehriban xanımın. Bu şəkillər dil açıb bu QADINdan danışır. Azərbaycanın Birinci Xanımından, Onun fəaliyyətindən söhbət açır. Onu daha yaxından tanımaq üçün yetərlidir bu şəkillər məncə...Budur, Mehriban xanım uşaq bağçası açılışındadır. Əli körpələrin saçlarını oxşayır, təbəssümü onların uşaq dünyasını güldürür. Budur, Mehriban xanım məktəb açılışındadır. Adı kimi mehriban baxışları ilə şagirdlərlə danışır, onlara yaradılan şərait gözlərindən yağan sevinclə ifadə olunur...Budur, Mehriban xanım sağlamlıq imkanları məhdud olan uşaqlarla bayram tədbirindədir. Onlardan biri qucağındadır, digəri çiyninə sarılıb, əlləri o birinin saçlarında gəzir. Valideyn himayəsindən məhrum olan bu uşaqlar Onunla ana istiliyini, hərarətini hiss edirlər. Sevinirlər, bu tədbirin bitməsini əsla istəmirlər.Budur, Mehriban xanım şəhid anası ilə görüşür. Yaşlı qadının əlləri əlinin içindədir. Ananın göz yaşlarını silir Mehriban xanım. Onunla kədərlənir, onunla qürurlanır, onunla şəhidin anası, candan yananı olur.Budur, Mehriban xanım könüllülərlə, idmançılarla, tələbələrlə... görüşür. Onların hər birinə məxsusi bir sevgi verir. Şəkil çəkdirir, qucaqlayır, söhbət edir.Və yüzlərlə belə şəkillər... Dil açıb Mehriban xanımın səmimiyyətindən, insanpərvərliyindən, duyğularından danışır. Hər bir şəkil yeni bir hadisə. Hər bir hadisə yeni bir səmimiyyət. Hər bir şəkil "yaxşı ki tanımışıq" dediyimiz QADINın bir gözəl keyfiyyəti...Bir QADIN tanıdıq... Yaxşı ki, tanıdıq. Hələ qarşıda Onun həyata keçirəcəyi böyük işlərdən, layihə və tədbirlərdən çox danışacağıq. Çünki Mehriban xanımın amalı və məqsədi Azərbaycan xalqının xoşbəxt gələcəyi, nurlu sabahıdır...

**Mətanət Məmmədova**

# ABŞ-İran:

## hədədən müharibəyə bir addım qalır...

Financial Times (FT) qəzetinin peyk görüntülərinə istinadən verdiyi məlumata görə, İordaniya və Səudiyyə Ərəbistanındakı bazalardakı Amerika qırıcı təyyarələrinin sayı bir ay ərzində əhəmiyyətli dərəcədə artıb. Tehranın Vaşinqtonla münaqişənin diplomatik yolla həllinin çox ehtimal olunduğu iddialarına baxmayaraq, İrana qarşı mümkün hərbi əməliyyatlara hazırlıqlar davam edir. Tel-Əviv Universitetinin məlumatına görə, İordaniyadakı Müvəffəq Salti hava bazasında 18 F-35 qırıcısı, 17 F-15 və səkkiz A-10 hücum təyyarəsi müşahidə edilib. Bazada EA-18 elektron müharibə təyyarəsi və nəqliyyat təyyarəsi də müşahidə edilib. Səudiyyə Ərəbistanındakı Şahzadə Sultan hava bazasında da hərbi qüvvələrin cəmləşməsi müşahidə olunub, burada AWACS təyyarələri, eləcə də C-130 və C-5 nəqliyyat təyyarələri aşkar edilib.

Yaxın Şərqdəki ABŞ qüvvələri hazırda göyərtəsində onlarla qırıcı təyyarə olan iki təyyarədaşıyan gəmi, 16 digər döyüş gəmisi və iki dəstək gəmisi, eləcə də quru bazalarında və dənizdə təxminən 40.000 əsgərdən ibarətdir. FT qeyd edir ki, bu, 2003-cü ildə İraq müharibəsinin başlanğıcından bəri Yaxın Şərqdə dəniz qüvvələrinin ən böyük cəmləşməsidir.



### Donald Tramp Tehrana son tarix təyin etdi

ABŞ Prezidenti Donald Tramp İran rəhbərliyinə Yaxın Şərqdə vəziyyətin gərginliyini azaltmaq üçün razılığa gəlmək üçün 10-15 gün vaxt verib. Ağ Ev rəhbəri xəbərdarlıq edib ki, Tehran bununla razılaşmasa, onu ”pis şeylər” gözləyir. Amerika mediasının məlumatına görə, Pentaqon bu həftə sonu İslam Respublikasına zərbə endirməyə hazır olacaq. Lakin rəsmilər bildirirlər ki, ABŞ əvvəlcə İran hökumətini güzəştlərə ehtiyac olduğuna inandırmaq məqsədi ilə məhdud miqyaslı hücuma icazə verə bilər. Vaşinqtonun sözlərinə görə, bu, Tehranı razı sala bilməsə, Pentaqon rejim dəyişikliyinə yönəlmiş tammiqyaslı əməliyyata başlayacaq.

Donald Tramp cümə axşamı, 19 fevralda Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasında İran üçün son tarix təyin edib. ”Biz razılaşma əldə edə bilərik”, - deyə o bildirib. ”Yəqin ki, bu barədə növbəti on gün ərzində məlumat əldə edəcəksiniz”, - deyə Amerika lideri bildirib. ”İran hakimiyyəti bütün regionun sabitliyini təhdid etməyə davam edə bilməzlər və onlar razılığa gəlməlidirlər... Əgər bu baş verməsə, pis şeylər baş verəcək”. Bir neçə saat sonra təyyarəsində jurnalistlərlə danışan Ağ Ev rəhbəri razılığa gəlmək üçün on günün ”kifayət edəcəyini” vurğulayıb. ”On-on beş gün, demək olar ki, maksimum”, o əlavə edib.

CNN mənbələri iddia edir ki, ABŞ Hərbi Nazirliyi 21-22 fevral tarixlərində İrana qarşı əməliyyata başlamağa hazır olacaq. Son söz Donald Trampa məxsusdur. Kanalın mənbələrinə görə, İranla iki raund danışıqlarda iştirak edən ABŞ prezidentinin kürəkəni Cared Kuşner Ağ Evi güc tətbiq etməkdən çəkindirməyə çalışır. O, ABŞ-ın maksimalist tələblərini yerinə yetirmədən belə, İranla razılığa gəlməyə ümid edən Ağ Ev müşavirləri arasındadır. ABŞ ordusu hələlik İrana potensial zərbələr endirmək üçün hədəflərin dəqiq siyahısını almayıb. Buna görə də, gözlənilən ABŞ kampaniyasının dəqiq nəyi hədəfləyəcəyi məlum deyil - İranın liderliyini aradan qaldırmaq, uran zənginləşdirmə qurğularını məhv etmək və ya ballistik raket proqramını ləğv etmək. ABŞ-ın Yaxın Şərqdəki əsas müttəfiqi olan İsrail, əməliyyatın geniş hədəfləri əhatə etdiyini və keçən ilki 12 günlük müharibə zamanı olduğu kimi Tehrana özünə gəlmək üçün heç bir şans qoymadığını iddia edir. Ağ Evin təhdidlərini şərh edən İran millət vəkili Abbas Papizadə xəbərdarlıq edib ki, Vaşinqton İslam Respublikasının gizli hərbi imkanlarına ciddi yanaşmalıdır. O bildirib ki, ”İranın xüsusi müharibə metodları və gizli silahları var”. Millət vəkili bu silahların nə olduğunu dəqiqləşdirməyib, lakin əlavə edib ki, ABŞ-İran münaqişəsi qaçılmaz olaraq bütün Yaxın Şərqin sabitliyinə, eləcə də qlobal neft bazarına təsir edəcək.

***V.VƏLİLİ***

# Azərbaycan-Serbiya: Diplomatik əlaqələrin qurulmasından strateji tərəfdaşlığa qədər



*Ülvi Fərzəliyev,*
*YAP Neftçala rayon təşkilatının sədri*

Azərbaycan ilə Serbiya arasındakı münasibətlər yalnız diplomatik əlaqələrlə məhdudlaşmayıb. Zamanla bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, siyasi, iqtisadi və humanitar sahələrdə çoxşaxəli əməkdaşlıq modeli kimi formalaşmışdır. 1997-ci ildən diplomatik əlaqələrin başlanması ilə iki dövlət qarşılıqlı etimad və beynəlxalq hüququn prinsiplərinə əsaslanan münasibətlər sistemi qurmuşdur. Tarixi əhəmiyyət daşıyan addımlardan biri 8 iyun 2011-ci il tarixində Azərbaycanın Serbiyada səfirliyinin açılması, eyni ilin fevral ayında isə Serbiyanın Azərbaycanda səfirliyinin təsis olunmasıdır.

Azərbaycan və Serbiya strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Bu münasibətlər 2013-cü ildə Bakıda ”Azərbaycan Respublikası və Serbiya Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə”, 2018-ci ildə ”Strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı” və 2022-ci ildə Belqradda Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum ilə möhkəmləndirilmişdir. Bundan əlavə, 2010-2023-cü illər ərzində iki ölkə arasında 57 sənəd imzalanmış, əməkdaşlığın hüquqi və institusional bazası gücləndirilmişdir. Bu sənədlər və strateji mexanizmlər nəticəsində iki ölkə arasında siyasi etimad və qarşılıqlı dəstəyə əsaslanan iqtisadi əməkdaşlıq inkişaf etmiş, ikitərəfli ticarət dövriyyəsi artmışdır. İqtisadi əməkdaşlıq son illərdə daha sistemli və praktik istiqamət almışdır. İkitərəfli əlaqələrdə 2019-cu ildə təxminən 8,5 milyon ABŞ dolları olan ticarət dövriyyəsi 2023-cü ildə 11,3 milyon ABŞ dollarına yüksəlmişdir. Energetika sahəsində əməkdaşlıq Avropa enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət daşıyır. 2024-cü ilin yanvarından etibarən Azərbaycan Serbiyaya təbii qaz tədarükünə başlamış, bu müddətdə təxminən 300 milyon kubmetr qaz ixrac olunmuşdur. Dövlət Neft Fondu Serbiyada 72,7 milyon ABŞ dolları həcmində investisiya portfelinə malikdir və 500 meqavat gücündə kombinə olunmuş qaz türbin elektrik stansiyasının inşası üzrə birgə layihə əməkdaşlığı yeni səviyyəyə çıxarır. İşgüzar forumlar, sahibkarlararası görüşlər və qarşılıqlı sərmayə təşəbbüsləri iqtisadi əlaqələrin davamlılığını təmin edir və əməkdaşlığın praktik nəticələrini daha da artırır.

Dövlət başçılarının qarşılıqlı səfərləri isə bu münasibətlərin strateji səviyyədə inkişafını təsdiqləyir. Prezident İlham Əliyevin indiyədək Serbiyaya üç rəsmi səfəri olmuş, sonuncusu 15-16 fevral 2026 tarixində baş tutmuşdur. Serbiya Prezidenti Aleksandar Vuçiç isə Azərbaycana indiyədək beş səfər etmişdir. Bu səfərlər əlaqələrin siyasi, iqtisadi və mədəni sahələrdə möhkəmləndirilməsinə ciddi töhfə vermişdir və həmçinin qarşılıqlı layihələrin sürətlə həyata keçirilməsini təmin etmişdir. 15-16 fevral 2026-ci il səfəri Azərbaycan-Serbiya münasibətlərində yeni strateji mərhələnin əsaslarını formalaşdırdı. Səfər çərçivəsində Strateji Tərəfdaşlıq Şurasının birinci iclası keçirildi və tərəflər enerji, iqtisadiyyat, kənd təsərrüfatı, humanitar, mədəniyyət, media, idman və tibbi sığorta sahələrində əməkdaşlıq üzrə müqavilələr imzaladılar. Bu sənədlər qarşılıqlı fəaliyyətin praktik əsaslarını möhkəmləndirməyə, qarşılıqlı sərmayə və real layihələrin həyata keçirilməsini sürətləndirməyə hesablanmışdır.

Səfər zamanı Prezident İlham Əliyev mətbuata bəyanatında Serbiyanı Dövlətçilik Bayramı münasibətilə təbrik etdi və vurğuladı ki, Azərbaycan və Serbiya ”iki dost ölkədir və daim bir birinin yanındadır”. İlham Əliyev əlaqələrin siyasi, iqtisadi və energetika sahələrində gücləndirilməsinin, beynəlxalq platformalarda qarşılıqlı dəstəyin və birgə sərmayə layihələrinin həyata keçirilməsinin prioritet olduğunu qeyd etdi. O, Serbiya ilə birgə elektrik stansiyalarının tikintisini və təbii qaz ixracını genişləndirmə planlarını diqqətə çatdırdı və əlavə etdi ki, əlaqələr yalnız diplomatik sözlərlə məhdudlaşmamalıdır, real layihələr və iqtisadi əməkdaşlıqla dəstəklənməlidir.

Serbiya Prezidenti Aleksandar Vuçiç isə səfərin iki ölkə arasındakı əlaqələrin inkişafında yeni mərhələ olduğunu, əməkdaşlığın həyatın hər bir sahəsində genişləndiyini vurğuladı. O, imzalanmış müqavilələrin sosial həyatın bütün sahələrində münasibətləri gücləndirəcəyini, turizmin və birbaşa hava reyslərinin artacağını, xalqlar arasında dostluğun genişlənəcəyini qeyd etdi və Azərbaycanın EXPO 2027-də iştirakını yüksək qiymətləndirdi.

Əminliklə demək olar ki, Azərbaycan-Serbiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsindədir və əməkdaşlığı bütün sahələrdə genişlənməyə hazırdır. Diplomatik əlaqələrdən başlayaraq iqtisadi, enerji, humanitar və mədəni sahələrə qədər uzanan çoxşaxəli əməkdaşlıq modeli real layihələr və müqavilələrlə möhkəmlənmişdir. Sonuncu səfər isə bu əməkdaşlığın yeni mərhələyə keçdiyini, qarşılıqlı investisiyaların, enerji layihələrinin və mədəni əlaqələrin gələcək perspektivlər üçün strateji əhəmiyyətini ortaya qoydu. Dövlət başçılarının rəsmi bəyanatları göstərir ki, Azərbaycan və Serbiya arasında münasibətlər yalnız siyasi dialoq deyil, praktiki və davamlı əməkdaşlıq üzərində qurulub, bu da regionda sülh, təhlükəsizlik və iqtisadi inkişaf üçün mühüm rol oynayır.

# Süfrəndə yoxsula yerin yoxdursa...

### Mətləb Salahov: "Öz evində süfrə açıb, imkansız insanlarla birlikdə iftar etmək savabların və dəyərlərin ən gözəlidir"



Ramazan ayı boyunca ölkədəki restoranlar fərqli qiymətlərlə iftar süfrələri təklif edir. Bəzi restoranlarda iftar menyuları münasib olsa da, bir çoxunda yüksək qiymətlər müşahidə olunur. Konkret olaraq, bəzi restoranlardakı qiymətlər vətəndaşların büdcələrinə uyğun gəlmir. Ümumilikdə isə restoranlardakı iftar menyuları orta hesabla 20-120 manat arasında dəyişir. Jurnalist- ekspert Mətləb Salahov SİA-ya açıqlamasında bildirib ki, cəmiyyətimiz bu gözəl Ramazan ayı barədə hələ də formal və əzbərlənmiş məlumatdan o tərəfə bilgi sahibi deyil: ”Təəssüf ki, bir çoxları yalnız formal şəkildə oruc tutur, sadəcə adət-ənənə qaydalarına əsaslandıqlarını deyirlər. Yəni ictimai düşüncə Ramazan ayının mahiyyəti, ac qalmağın fəzilətləri, insan sağlamlığına xeyri barədə, oruc tutmağın mənəvi baxımdan insan üçün nə qədər böyük dəyərə sahib olduğu barədə xəbərsizdir. Hətta bəziləri sadəcə bütün günü ac qalmaqla müsəlman kimi vəzifəsini bitmiş hesab edirlər. Lakin insanlar ac qalmaq ibadətinin məqsədi nədir, Allah bu ibadətlə bizə nə dediyinin mahiyyətini başa düşməlidirlər. Ramazan paylaşmaq, həmrəylik ayıdır. Lakin Bakıdakı restoran sahiblərinin az qala toy qiymətlərinə bərabər menyu dərəbəyliyi, ”iftar süfrəsi” adı ilə həmişəki kimi bu gözəl ayın fəzilətindən sui-istifadə cəhdi ikrah doğurur.

Unutmayaq ki, iftarın mahiyyəti bahalı restoranlarda qarın doyurmaq yox, mənəvi dəyərləri qorumaqdır. Süfrənin qiyməti deyil, niyyət və ölçü önəmlidir. Məncə, bu gözəl Ramazan ayında işbaz restoran sahiblərinə pul qazandırmaq əvəzinə öz evində süfrə açıb, imkansız insanlarla birlikdə iftar etmək savabların və dəyərlərin ən gözəlidir”.

***Afət Tahirqızı***

# “Şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti”

Fevralın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası və YAP Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə ”Şəhərsalma və Memarlıq İli” çərçivəsində ”Şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti” mövzusunda tədbir keçirilib. Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) inzibati binasında keçirilən tədbirdə əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.




Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin ölkəmizdə ”Şəhərsalma və Memarlıq İli” elan edilməsi qərarının əhəmiyyətindən danışıb. O, bu təşəbbüsün şəhərsalma siyasətində keyfiyyətli dəyişikliklərə və müasir memarlığın inkişafına töhfə verəcəyini vurğulayıb. Qeyd edib ki, cari il ərzində reallaşdırılacaq layihələr həm sosial infrastrukturun, həm də estetik mühitin daha da təkmilləşdirilməsinə xidmət edəcək. Eyni zamanda, təşkilatın üzvləri şəhərsalma və memarlıq sahəsində keçirilən tədbirlərdə fəal iştirak edəcəklər.





YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, qloballaşan dünyada şəhərsalma insan həyatının keyfiyyətini artırmaq, ətraf mühiti qorumaq və iqtisadi inkişafı təmin etmək baxımından mühüm prioritetlərdən birinə çevrilib. Onun sözlərinə görə, şəhərlər sürətlə böyüyür, lakin bu prosesin planlı və dayanıqlı olması gələcək nəsillərin rifahı üçün həyati əhəmiyyət kəsb edir. Azərbaycan inkişaf strategiyasında şəhərsalmanı insan mərkəzli, ekoloji və iqtisadi cəhətdən dayanıqlı şəkildə formalaşdırmağa xüsusi önəm verir.

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən şəhərsalma proqramları, müasir infrastruktur layihələri və işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri bu sahədə Azərbaycanı regionun qabaqcıl ölkəsinə çevirib.

Çıxış edən MİDA-nın İdarə Heyətinin sədri Sadiq Sadıqov deyib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir şəhərsalma və memarlıq siyasəti Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində uğurla davam etdirilir. Əlavə edib ki, şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınıb. Bu mötəbər tədbir əldə edilən tarixi nailiyyətlər fonunda dövlətimizin qlobal miqyasda etimada layiq görüldüyünü bir daha təsdiqləyir.

MİDA-nın respublikamızda, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə gördüyü işlər haqqında danışan S.Sadıqov bildirib ki, əhalinin güzəştli şərtlərlə mənzillərə sahib olmasını təşkil etmək məqsədi ilə rəhbərlik etdiyi Agentlik 10 illik fəaliyyəti dövründə Bakıda və regionlarda ümumilikdə 18 layihəyə start verib. İndiyədək təxminən 12 min mənzildən ibarət 8 güzəştli mənzil layihəsinin tikintisi tam başa çatdırılıb. 3 minə yaxın mənzildən ibarət 3 güzəştli mənzil layihəsi isə yekunlaşmaq üzrədir.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov isə şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti barədə geniş məruzə ilə çıxış edib. Məruzədə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan şəhərsalma siyasətinin artıq ən müasir səviyyəyə çatdırıldığı vurğulanıb. U.Ələkbərov deyib ki, hazırda bu sahədə yüksək idarəetmə və inklüziv inkişaf mövcuddur: ”Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir”.

U.Ələkbərov qeyd edib ki, dünyada genişmiqyaslı şəhərsalma transformasiyası həyata keçirilir. O vurğulayıb ki, Azərbaycan ən qabaqcıl şəhərsalma modellərini tətbiq edir, çoxsaylı beynəlxalq tərəfdaşları ilə genişmiqyaslı əməkdaşlıq qurur. Bildirilib ki, diqqət mərkəzində olan məsələlərdən biri də şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasətinin ən müasir tələblərə uyğun təşkil olunmasıdır.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə türk xalqlarının, o cümlədən azərbaycanlıların ən qədim şəhərsalma mədəniyyətinə malik olduğunu söyləyib. Xalqımızın şəhərsalma mədəniyyətinin 5000 illik tarixə malik olduğunu qeyd edən natiq bildirib ki, Azərbaycan memarlıq məktəbinin nümayəndələri tarixdə Uzaq Şərqdən Kordovaya qədər nadir memarlıq nümunələri yaradıblar.

E.Qasımzadə ölkəmizdə ”Şəhərsalma və Memarlıq İli”nin bir sıra mühüm hadisələrlə, o cümlədən memar Əcəmi Naxçıvaninin anadan olmasının 900 və Azərbaycan Memarlıq İttifaqının yaradılmasının 90 illiyi ilə əlamətdar olduğunu diqqətə çatdırıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şəhərsalma və Ərazilərin inkişafı şöbəsinin müdir müavini Şahnaz Bədəlova çıxışında qeyd edib ki, şəhərsalma sahəsi dünyada sürətli transformasiya mərhələsindən keçir. Onun sözlərinə görə, hazırda dünya əhalisinin təxminən 51 faizi şəhərlərdə yaşayır və BMT-nin proqnozlarına əsasən bu göstəricisinin 2050-ci ilə qədər 68 faizə çatacağı gözlənilir. Azərbaycanda da urbanizasiya prosesi davam edir.

YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov çıxışında Azərbaycanda memarlıq ənənələrinin inkişafı barədə fikirlərini bildirib. O qeyd edib ki, ölkəmizin zəngin memarlıq irsi həm tariximizi, həm də mədəni dəyərlərimizi nümayiş etdirir. Memarlıq abidələrinin qorunması və gələcək nəsillərə çatdırılması hər bir vətəndaşın ümdə vəzifələrindən biridir. Tahir Məmmədov, həmçinin müasir şəhərsalma layihələrinin milli ənənələrlə uzlaşmasının əhəmiyyətini vurğulayıb. Sonra tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Azərbaycan qlobal miqyasda nüfuzlu dövlət və etibarlı tərəfdaşdır

## "Gənclərin siyasət və analitika mərkəzi" layihəsinin açılış tədbiri keçirilib








Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının ”Gənclərin siyasət və analitika mərkəzi” siyasi, strateji, ictimai və geosiyasi proseslərin təhlili layihəsinin açılış tədbiri keçirilib. Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib. Tədbirdə YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli və YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov çıxış edərək layihənin əhəmiyyəti, əsas ideya və gələcək fəaliyyəti ilə bağlı məlumat veriblər. Qeyd olunub ki, layihənin əsas məqsədi gənclərin strateji düşüncə və analitik bacarıqlarının inkişaf etdirilməsi, regional və beynəlxalq prosesləri düzgün qiymətləndirmə qabiliyyətlərinin gücləndirilməsidir.

Sonra Trend Beynəlxalq İnformasiya Agentliyinin Baş direktorunun müavini, ”Baku Network” Ekspert Platformasının direktoru, Əməkdar jurnalist Elçin Alıoğlu ”Müasir geosiyasi proseslər və Azərbaycan” mövzusunda təlim keçib. Bildirilib ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçib. Qeyd olunub ki, qlobal güc balansının dəyişməsi, regional münaqişələr, enerji təhlükəsizliyi məsələləri, nəqliyyat-logistika xətlərinin yenidən formalaşması və rəqəmsal transformasiya geosiyasi proseslərin əsas istiqamətlərini müəyyən edir. Bu mürəkkəb şəraitdə isə Azərbaycanın rolu və mövqeyi xüsusi əhəmiyyət daşıyır.

Diqqətə çatdırılıb ki, Azərbaycan milli maraqlara əsaslanan xarici siyasət kursu yürüdərək həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi çıxış edir. Azərbaycan Cənubi Qafqaz regionunda Şərq ilə Qərbi, Şimal ilə Cənubu birləşdirən strateji körpü rolunu oynayır. Bu baxımdan Orta Dəhliz layihəsi və beynəlxalq nəqliyyat marşrutları Azərbaycanın tranzit ölkə kimi rolunu daha da gücləndirir. Eyni zamanda enerji təhlükəsizliyi sahəsində mühüm aktor kimi çıxış edən Azərbaycan Xəzər hövzəsinin enerji resurslarının dünya bazarlarına çatdırılmasında da əhəmiyyətli rol oynayır. Tədbir interaktiv formada davam edib, gənclərin sualları cavablandırılıb.

# Baharın ilk çərşənbəsi - Su çərşənbəsi

***Qışın soyuğundan, şaxtalı havalardan sonra bizi baharıq isti, iliq nəfəsi qarşılayır. Bütün canlılar, təbiət fəsillərin ən gözəli hesab olunan baharın tez gəlməsini səbirsizliklə gözləyirlər. Artıq baharın necə deyərlər, novruzun ilk çərşənbəsi - Su çərşənbəsi bizi qarşılayır. İlk müjdə özü ilə baharın qoxusunu, ab-havasını da gətirib. İnanclara görə baharın ilk çərşənbəsində su mənbələri təzələnir və dağ başındakı qarlar əriməyə başlayır. Su çərşənbəsi ilə bayrama hazırlıqlar başlayır. Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Odur ki, ilk olaraq su çərşənbəsi qeyd edilir. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti bir daha ifadə olunur. Bütün mifik mətnlərdə su həyat verən, dirildən, xoşbəxtlik gətirən müqəddəs bir inam obyekti kimi çıxış edir. Xalq arasında ona "əvvəl çərşənbə", "gözəl çərşənbə", "sular Novruzu", "gül çərşənbə" də deyilir.***

TƏHLİL

Əlbəttə ki, Novruz bayramı Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, türk dövlətlərində və bir çox qonşu ölkələrdə olduğu kimi, Novruz Bahar bayramı kimi qeyd olunur. Bayrama qədər xalqımız 4 çərşənbəni qeyd edir. Bəzi qədim inanclara görə kainat 4 ünsürdən - su, od, torpaq və küləkdən yaranıb. Aşıqlar da vücudnamələrində "Ab, ataş, xak, badan yarandım", - deyiblər, yəni insan su, od, torpaq və yelə bağlıdır. Qeyd etdiyimiz kimi, birinci çərşənbəmiz Su çərşənbəsi adlanır. Yəni bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Qızlar bulaqlardan sərin, şirin su gətirər, evin ətrafına çiləyər, üzlərini yuyardılar. İkincisi çərşənbəmiz Od çərşənbəsi adlanır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir. Od çərşənbəsində tonqallar qalanır. Hər ailə üzvünün adına bir şam yandırılır, xonçalar düzəldilir. Üçüncüsü Yel çərşənbəsidir. Yəni yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yelləunder. Dördüncüsü Torpaq çərşənbəsidir ki, bu da sonuncu çərşənbədir. Göründüyü kimi, birinci çərşənbədən başlayaraq, torpağı ana təbiət su ilə islatdı, günəşlə isitdi, onu yaratmağa hazırladı. Ona görə də ilk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar.

Novruz bayramında xüsusi şirniyyatlar bişirilir. Çərşənbə və bayram xonçaları bu şirniyyatlarla bəzədilir. Hər bir bişirilən şirniyyatlar bir səma cisimlərinə bənzədilir. Qoğal günəşi, şəkərbura ayı, paxlava ulduzları tərənnüm edir. Kosa və Keçəl isə Novruz atributlarıdır. Keçəl qışı, Kosa isə yazı tərənnüm edir.

Bu gün artıq Novruz bayramının ilk çərşənbəsi Su çərşənbəsi qeyd olunur. Bu çərşənbəni "Yalançı", "Əzəl çərşənbə", "Sular Novruzu" da adlandırırlar. Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirirlər.




### SUYA TAPINMA İNAMI

Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su çiləyirlər. Xalqın inamına görə Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər il boyu xəstəlikdən uzaq olarlar. Həmin gün su üstündə müxtəlif mərasimlər keçirilir, qədim türklərdə su tanrıları sayılan Aban və Yadanın şərəfinə nəğmələr oxunur.

Su ilə bağlı folklorumuzda maraqlı olan inanclarla rastlaşırıq. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti bir daha ifadə olunur. Bütün mifik mətnlərdə su həyat verən, dirildən, xoşbəxtlik gətirən müqəddəs bir inam obyekti kimi çıxış edir. Süfrəyə su dağılması aydınlıqdır, Su içən adamı qəfil vurmazlar, Su içən adamı ilan çalmaz, Lal axan sudan keçərkən suyum irəlilə, deyərlər, Su olan yerdə dirilik olar, Su murdarlıq götürməz və s. Əlbəttə ki, bu inaclar suyun təmizliyinə, saflığına olan inamdan irəli gəlir. Qoy su çərşənbəsi bütün dünyamıza sülh, əmin-amanlıq gətirsin. Bütün insanların həyatı su kimi şəffaf, parlaq və aydın olsun! Su çərşənbəniz mübarək!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xocalıda ədalətin təntənəsi



***Şirincan Məmmədli***
***Tarix müəllimi, "Tərəqqi" medalı təltifçisi***

Azərbaycan artıq yeni bir dövrün başlanğıcındadır. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə şəxsən səfər edir, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı tapşırıqlarını verir. Hər bir ərazidən qalib ordunun və dövlətin qalib SƏRKƏRDƏSİ kimi səsəni ucaldir, mesajlarını verir, dünya bunu görür və eşidir.

Əlbəttə ki, bu gün biz qalib xalq kimi yaşasaq da ötən illərdə yaşadığımız faciələr tariximizin səhifələrinə həkk olunub və o, tarixi dövr yaddaşımızda qövr edir. Bəşəriyyət tarixinin insanlıq əleyhinə yönəlmiş ən dəhşətli cinayətlərdən biri olan, Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik zəmində soyqırımı siyasətini sübut edən Xocalı soyqırımından 34 il ötür.

Xocalı soyqırımı isə heç vaxt xalqımızın yaddaşından silinməyəcək dəhşətli olaydır. 1992-ci ilin 26 fevral tarixində erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı bir gecənin içərisində yerlə-yeksan olundu. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Prezidentin bildirdiyi kimi, heç vaxt Azərbaycan xalqı bu qanlı cinayəti unutmayacaq.

Bəli, biz Xocalıya da qayıdacağımız günü gözləyirdik. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

2025-ci il fevralın 25-də Prezident İlham Əliyev "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" Sərəncam imzalayıb. Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin təməlqoyma mərasimi 2024-cü il 26 fevral tarixində baş tutub. Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılan Xocalı Soyqırımı Memorial Kompleksi müxtəlif bölmələrdən ibarət olacaq. Burada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş faciə, həmçinin Xocalının tarixi, coğrafi əhəmiyyəti, dinc əhaliyə qarşı törədilmiş faciədən əvvəl Xocalıdakı həyat barədə faktlar yer alacaq. Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsində əhəmiyyətlidir.

Məlumdur ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması, bu cinayət əməlinə hüquqi və siyasi qiymətin verilməsi məqsədilə davamlı olaraq həyata keçirilən "Xocalıya ədalət" kampaniyası bu soyqırımı hadisəsi ilə bağlı beynəlxalq səviyyədə məlumatlılığın artırılması, kütləvi qırğınlara, etnik təmizləmə, irqi, dini və etnik ayrı-seçkilik hallarına qarşı böyük müqavimətin göstərilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Kampaniya çərçivəsində həyata keçirilən fəaliyyət nəticəsində 18 dövlətin qanunvericilik orqanı, ABŞ-ın 24 ştatı, eləcə də İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı tərəfindən bu qəddar qətliam pislənilmiş, soyqırımı kimi qiymətləndirilib, bununla bağlı müvafiq qərar və qətnamələr qəbul olunub. "Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır"-deyən Prezident Heydər Əliyev Fondunun Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərdiyini bildirib. Belə ki, Heydər Əliyev Fondunun xətti ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası çərçivəsində dünyanın müxtəlif yerlərində bir çox tədbirlər, tədqimatlar həyata keçirilmişdir, kitablar, məqalələr dərc edilmişdir, sərgilər təşkil olunmuşdur. Prezidentin vurğuladığı kimi, biz haqlı olaraq dünyadan ədalət tələb edirdik". Çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın".

Sonda onu bildirmək istəyirəm ki, Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında alıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir.

# Atmosfer təhlükədədir: yeni araşdırma deyir ki...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycançılıq . ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*

***Ozon təbəqəsini qorumaq üçün tətbiq edilən kimyəvi maddələr artıq gözlənilməz ekoloji fəsadlara səbəb olur. Yeni aparılan bir araşdırma göstərir ki, bu maddələr planetdə uzunmüddətli və potensial olaraq zərərli olan əbədi kimyəvi maddənin çox miqdarda yayılmasına səbəb olub.***



Lankaster Universitetinin atmosfer elmləri üzrə tədqiqatçıları ilk dəfə olaraq bu çirklənmənin nə qədərinin dünya miqyasında toplandığını hesablayıblar. Onların təhlili göstərir ki, müəyyən anestezik qazlarla yanaşı, CFC-ləri əvəz etmək üçün istifadə edilən kimyəvi maddələr 2000-2022-ci illər arasında atmosferdən Yer səthinə təxminən üçdə bir milyon tonun (335.500 ton) trifluorosetik turşusunun (TFA) çökməsinə səbəb olub.

Trifluorosetik turşu (TFA) - kimyəvi formulu CF?COOH olan, çox güclü və dayanıqlı üzvi turşudur. Strukturuna görə sirkə turşusuna bənzəyir, amma tərkibində üç flüor atomu olduğu üçün daha güclü və daha davamlıdır. O dərman və pestisid istehsalında ara maddə kimi, laborator analizlərdə, bəzi plastik və kimyəvi materialların hazırlanmasında istifadə olunur.

TFA birbaşa çox istehsal olunmur. Əsasən soyuducu qazların (məsələn, bəzi HFC və HFO qazlarının) parçalanması nəticəsində, ”əbədi kimyəvilər” adlandırılan PFAS qrupuna aid bəzi maddələrin dağılması zamanı, atmosferdə kimyəvi reaksiyalar nəticəsində yaranır. Yəni o, sənaye və atmosfer proseslərinin son məhsuludur. Ətraf mühitə təsiri böyükdür, suda çox yaxşı həll olur və torpaqdan asanlıqla yuyulub yeraltı sulara keçir. Çox dayanıqlıdır, təbiətdə asan parçalanmır, çay və göllərdə toplanma riski var. Yüksək konsentrasiyada bitkilərin böyüməsini zəiflədə bilər, kök sisteminə təsir göstərə bilər Hazırda alimləri narahat edən əsas məsələ onun yığılıb qalması və uzunmüddətli ekoloji təsir potensialı olmasıdır. PFAS maddələrinin qadağası və alternativ qazların istifadəsi artdıqca, atmosferdə parçalanma nəticəsində TFA miqdarı artma ehtimalı da müzakirə olunur. O, ”görünməz, amma qalıcı çirklənmə” kateqoriyasına daxil edilir.

Lankaster Universitetinin tədqiqatı həmçinin problemin pik həddə çatmadığı barədə xəbərdarlıq edir. Tədqiqatçılar illik TFA istehsalının 2025-2100-cü illər arasında ən yüksək səviyyələrə çata biləcəyini də istisna etmirlər. Araşdırmanın nəticələri Geophysical Research Letters jurnalında dərc edilib. Tədqiqatçılar havada spesifik qazların parçalanması zamanı TFA-nın necə əmələ gəldiyini də ölçüblər. Bunlara soyuducu sistemlərdə geniş istifadə olunan hidroxlorflüorkarbonlar (HCFC) və hidroflüorkarbonlar (HFC), eləcə də inhalyasiya anesteziyası kimi istifadə olunan birləşmələr daxildir. F-qazlar kimi tanınan bu maddələr (Monreal Protokolu və sonrakı Kiqali Düzəlişindən sonra) tədricən istifadədən çıxarılsa da, atmosferdəki ümumi konsentrasiyası artmaqda davam edir.

Qeyd edək ki, TFA poliflüorlu alkil maddələri (PFAS) ailəsinə aiddir. Bu süni kimyəvi maddələr təbii parçalanmaya davamlı olduqları və ətraf mühitdə son dərəcə uzun müddət qala bildikləri üçün tez-tez əbədi kimyəvi maddələr adlandırılırlar. Alimlər hələ də TFA-nın potensial təsirləri ilə bağlı anlayışlarını təkmilləşdirirlər. Avropa Kimyəvi Agentliyi TFA-nı su ekosistemi üçün zərərli hesab edir. Bu kimyəvi maddə insan qanında və sidikdə də aşkar edilib və Almaniya Federal Kimyəvi Ofisi bu yaxınlarda TFA-nı insan reproduktivi üçün potensial zəhərli kimi təsnif etməyi təklif edib.

Bəzi tənzimləyici orqanlar TFA-nın mövcud ətraf mühit səviyyələrinin insanlara zərər verə biləcəyi gözlənilən hədlərdən aşağı olduğunu söyləsələr də, onun davamlı və potensial olaraq yığılması ilə bağlı narahatlıqlar artır. Bu, TFA-nın planetar sərhəd hədəsi kimi qəbul edilməsi çağırışlarına səbəb olub. ”Tədqiqatımız göstərir ki, CFC əvəzedicilərі TFA-nın dominant atmosfer mənbəyi olma ehtimalı yüksəkdir”, - deyə Lankaster Universitetinin doktorantura tədqiqatçısı və tədqiqatın aparıcı müəllifi Lüsi Hart bildirib. TFA-nın necə hərəkət etdiyini və çökdüyünü göstərmək üçün hava şəraiti də simulyasiyalara daxil edilib. Kimyəvi maddə yağışla buludlardan təmizlənə və ya birbaşa havadan quru və su səthlərinə çökdürülə bilər. Nəticələr göstərir ki, Arktikada aşkarlanan demək olar ki, bütün TFA, bölgənin əsas emissiya mənbələrindən uzaq olmasına baxmayaraq, CFC əvəzedici kimyəvi maddələrdən gəlir. Bu tapıntı TFA çirklənməsinin dünya üzrə nə qədər geniş yayıldığını sübut edir.

”CFC əvəzediciləri uzunömürlüdür və atmosferdə emissiya nöqtələrindən Arktika kimi ucqar bölgələrə daşına bilir, burada onlar parçalanaraq TFA əmələ gətirə bilirlər”, - deyə Lucy Hart bildirib: ”Tədqiqatlar ucqar Arktika buz nüvələrində TFA səviyyəsinin artdığını aşkar edib və nəticələrimizə görə bu yataqların demək olar ki, hamısının bu qazlarla zəngin olduğunu deyə bilərik. Ətraf mühitin TFA çirklənməsi ilə mübarizə aparmaq lazımdır, çünki o, geniş yayılıb, yüksək dərəcədə davamlıdır, həmçinin getdikcə səviyyəsi artır”.

***Lalə Mehralı***

# Təxribatçı antimilli sürüyə erməni lobbisinin dəstək verdiyi üzə çıxdı

## Vaşinqtonda yaşayan Asif Mirzəyev törədilən təxribatla bağlı diqqətçəkən faktlar açıqladı

Zaman-zaman erməni-rus təxribat maşını Azərbaycan dövlətinə qarşı çirkin, məkrli kampaniya aparıb. Bu fəaliyyət Azərbaycanın Qarabağdakı hərbi-terrorçu dəstələri tamamilə məhv edilərək, ərazi bütövlüyünün bərpa edilməsindən sonra daha geniş xarakter alıb. Rusiya açıq şəkildə ölkəmizin beynəlxalq aləmdə imicinin ləkələnməsi üçün hər vasitə və üsullardan istifadə edir. Kremldən göstəriş alan Salavyov, Simonyan kimi televiziya şərhçiləri, mətbua orqanları, sosial şəbəkənin idarəolunan ünsürləri Azərbaycana qarşı həqiqəti əks etdirməyən dezinformasiya xarakterli informasiyalar yayırlar. Son günlər isə məkrli dairənin yaramaz məxluqları Azərbaycanın atributlarını, Fateh Sərkərdəmiz, Prezidentimizi hədəfə alırlar. Bütün bunlar heç şübhəsiz ki, Rəsmi Kremlin Azərbaycana qarşı həyata keçirdiyi hibrid hücumlarının tərkib hissəsidir. Çirkin məqsədin arxasında dayanan marağa isə ölkəmizin beynəlxalq mövqeyinə zərbə vurmaq, ictimai-siyasi sabitliyə xələl gətirməkdir. Mehman və Emin Hüseynovların da ortaya atılmaları birbaşa Rusiya xüsusi xidmət orqanlarının fəaliyyətlərinin nəticəsidir. Qardaşlar Rusiyanın məlum dairələrinin sifarişi ilə Azərbaycan dövlətinə, xalqına, atributlarına qarşı çirkin ifadələrlə çıxış edir, düzüb qoşulan videolar paylaşırlar. Bununla bir daha soydan-kökdən gələn iyrənc məxluqlar olduqlarını nümayiş etdirirlər.



### ABŞ-da təşkil olunan təxribat

Azərbaycanın dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında fəal iştirak etdiyi hər kəsə məlumdur. O da bəllidir ki, Prezident İlham Əliyev Qəzzaya dair ”Sülh şurası”nın işində fəal iştirak etməklə Yaxın Şərqdə əmin-amanlığın yaradılmasına töhfələr verir. Bu da Rusiyanı, Fransanı, Almaniyanı və digər dövlətləri ciddi narahat edir. Ona görə də, müxtəlif çirkin vasitələrlə Azərbaycanın beynəlxalq aləmdəki imicini ləkələməyə çalışırlar. Vaşinqtonda Sülh Şurasının ilk iclasında iştirak edən Azərbaycan dövlət rəhbərliyinə qarşı bir qrup antimilli ünsür təxribatlara törətməyə cəhdlər göstərib. Onlar dövlət rəhbərliyinə qarşı təhqiramiz və qeyri-etik ifadələr səsləndirərək mühafizə olunan əraziyə daxil olmağa çalışıblar. Ancaq təxribat sürüsünün məkrli niyyəti baş tutmayıb. Azərbaycan Prezidentinin təhlükəsizlik xidmətinin əməkdaşları xüsusi peşəkarlıq nümayiş etdirək sifarişlə əraziyə göndərilmiş antimilli ünsürlər zərərsizləşdiriliblər. Sonradan insident nəticəsində ciddi pozuntu qeydə alınmasa da, sosial şəbəkələrdə yayılan videogörüntülərdə antimilli ünsürlər açıq şəkildə nalayiq ifadələr işlətdiyi eşidilir. Sual yaranır, niyə məhz Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra xarici məkrli dairələr ölkəmizə qarşı birləşiblər? Nədən əhəmiyyətli beynəlxalq tədbirlərin keçirildiyi dövrlərdə Azərbaycan rəhbərliyinə qarşı təxribat xarakterli aksiya təşkil olunur? Cavab qısa və sadədir: Azərbaycanın dünyanın güc mərkəzlərindən birinə çevrilməsi bir sıra siyasi mərkəzlərdə, dövlətlərdə ciddi narahatlıq yaradıb.

### Asif Mirzəyev: ”Aksiyada iştirak edəcək şəxslərin hər birinə 105 dollar verilib”

Diqqətçəkən məqam ondan ibarətdir ki, belə bir təxribatın təşkil olunmasından sonra bəzi riyakar dairələr və məkrli şəxslər özlərini ifşa edən açıqlamalar yayırlar. Yeni təxribatların törədilməsində əllərinin olduğunu nümayiş etdirirlər. ABŞ-da fəaliyyət göstərən erməni ictimai-siyasi ANCA təxribatla bağlı özünə məxsus mövqe ifadə edib. Təşkilat yaydığı açıqlamada təxribatçılara haqq qazandırır və ”Əli Kərimliyə və Tofiq Yaqubluya azadlıq”, ”Azərbaycandakı siyasi məhbuslara azadlıq” kimi şüar xarakterli fikirlər səsləndirib. Haqlı və əsaslı sual yaranır, bu təşkilat Əli Kərimli və Tofiq Yaqublu ilə hansı əlaqəsi var? ANCA erməni təşkilatı olduğu halda nədən Azərbaycanın siyasi arenası ilə bağlı mövqe ifadə edir? Yenə də sualın cavabı aydındır: Əli Kərimli, Tofiq Yaqublu və ABŞ-da məlum təxribatı törədənlər antimilli ünsürlərin erməni lobbisi ilə geniş əməkdaşlıq münasibətləri mövcuddur. Vaşinqtonda yaşayan Asif Mirzəyevin etirafına görə, təxribatın təşkil edilməsi ilə bağlı bir ay öncə ANCA erməni siyasi təşkilatın ofisində müzakirələr aparılıb: ”Aksiyada iştirak edəcək şəxslərin hər birinə 105 dollar verilib və onlara dəstək göstəriləcəyi vəd olunub”. A.Mirzəyevin sözlərinə görə, aksiyanın idarəedilməsini də erməni təşkilatı üzərinə götürüb: ”Nəzərdə tutulurdu ki, qarşıdurma yaransın və diqqət mərkəzinə çevrilsinlər. Lakin onlara vəd edilən dəstək göstərilmədiyindən plan baş tutmadı”.

Törədilən təxribatın önündə olan erməniпərəst senatorlardan biri də Frank Pallonedir. O, erməni lobbisinin fəallarından hesab olunur. 1992-ci ildə Azərbaycana qarşı tətbiq edilən ”907-ci düzəlişin” əsas müəlliflərindəndir. ABŞ Konqresində erməni məsələləri üzrə fəaliyyət göstərən qrupun həmtəsisçilərindən biridir. Bu üzdəniraq Senator Qarabağ münaqişəsi dövründə və sonrakı mərhələlərdə separatçıların terror fəaliyyətlərini dəstəkləyən əsas şəxslərdən olub. Hazırda Azərbaycan torpaqlarını işğaldan azad edən qalib dövlət kimi dünya siyasətində xüsusi rola malikdir. ABŞ-la Azərbaycan arasında səmimi, hər iki dövlətin maraqlarına xidmət edən münasibətlər yaranıb. Ən əsası ”907-ci düzəlişin” tamamilə arxivə göndərilməsi gözlənilir. Bütün bunlar ANCA və Frank Pallone kimilərini narahat edir. Çünki bu, onların ABŞ-dakı siyasi gündəliyində əsas yer tutan mövqelərin zəifləməsi ilə nəticələnə bilər. Ona görə də, Vaşinqtonda antimilli ünsürlərdən alət kimi istifadə etməklə ABŞ-Azərbaycan münasibətlərini korlamağa və ölkəmizin beynəlxalq imicinə zərbə vurmağa ümid edilən təxribat təşkil ediblər. Lakin məkrli niyyətləri və fəaliyyətləri baş tutmadı. Rüsvay olunaraq geri çəkilməyə məcbur oldular.

***İLHAM ƏLİYEV***

SON SƏHİFƏ
SƏS
24 fevral
2026-cı il

# Miras sahiblərinin borca görə məsuliyyəti: qanun nə deyir?





"Vəfat edən şəxsin kredit borcu mövcud olduqda, bank da borcun ödənilməsi üçün tədbir görür. Lakin, əgər vərəsələr mirası qəbul etmirsə və şəxsin əmlakı mövcud deyilsə, borc bank tərəfindən silinə bilər". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyin sədri Fariz Əkbərov deyib. O bildirib ki, borclu vəfat etdikdə onun krediti, bank qarşısında daşıdığı öhdəlikləri və digər borcları avtomatik olaraq silinmir:

"Bu proses Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müvafiq maddələri və Konstitusiya Məhkəməsinin Plenumunun 4 iyun 2018-ci il tarixli qərarı ilə tam formalaşdırılmış hüquqi çərçivəyə malikdir. Mülki Məcəllənin 470, 472, 1146, 1255 və 1306-cı maddələrinə əsasən, borclunun ölümündən sonra yaranan borc məsuliyyəti birbaşa vərəsəlik münasibətləri ilə əlaqələndirilir. Qanunvericilik miras sahiblərinin və kreditorun (bankın) hüquqlarını balanslaşdırmaq üçün konkret öhdəlik bölgüsü müəyyən edir.

Vərəsələrin məsuliyyətini Konstitusiya Məhkəməsinin Plenumu 2018-ci il tarixli qərarında bu məsələni belə şərh edir:Mirası qəbul etmiş vərəsələr, miras açıldığı gündən onlara çatan miras payı həcmində mərhumun kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Yəni vərəsə mirası qəbul edibsə, miras payı qədər borca cavabdeh sayılır. Əgər vərəsə mirası qəbul etməyibsə, borca görə məsuliyyət daşımır. Konstitusiya Məhkəməsi bu məsələdə bir məqamı xüsusi vurğulayır: mirası qəbul edən vərəsələr faktiki olaraq mərhumun öhdəlikləri üzrə borcluya çevrilirlər. Buna görə də kreditorun (bankın) ilk müraciət etməli olduğu tərəf məhz vərəsələrdir.

Mülki Məcəllənin 1255 və 1306-cı maddələri, habelə Konstitusiya Məhkəməsinin qərarına əsasən:-

- Vərəsələr borcu ödəməkdən yayınırsa,
- Öhdəliyi vaxtında və düzgün icra etmirlərsə,
- Vərəsəyə çatan mirasın dəyəri borcu ödəməyə kifayət etmir. Bu halda kreditorun zaminə qarşı tələb irəli sürmək hüququ yaranır.

Belə olan halda zaminliyin taleyi borclunun ölümü ilə dəyişmir.

Yəni, borclu vəfat etsə belə, zaminin öhdəliyi avtomatik olaraq xitam verilmir. Zamin kreditor qarşısında tam məsuliyyət daşıyır. Zaminin cavabdehlik həcmi vərəsənin mirası çatan payı ilə məhdudlaşmır. Zamin öhdəliyi müqavilədə necə qeyd olunubsa, həmin qaydada davam edir".

*Ayşən Vəli*



## TƏBRİK EDİRİK!

**FM netvork marketinq şirkətinin lideri Əfruzə xanım Tarverdiyeva FM menecer rütbəsinə yüksəlib. Bu münasibətlə Əfruzə xanımı şirkətin rəhbəri Firuz Məhərrəmov və əməkdaşlar Bəykişi, Dəyanət, Vasif, Ənvər, Səltənət, İlduzə, Sahibə, Məhbubə, Mafiyat, Amina, Məhparə, Günay, Münəvvər, Gürcüstan komandasının lideri Zinyət xanım İbadova, Dilbər xanım və başqaları təbrik edirlər, daha yüksək titullara ucalmağı arzulayırlar. Əfruzə xanım, uğurlarınız daha bol olsun.**




## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti Kardiometabolik və Nadir Xəstəliklər Konqresində iştirak ediblər






Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi rəisinin müavini, tibb üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəis müavini, t.ü.f.d. Nabil Seyidov, Kardiologiya şöbəsinin invaziv kardioloqları - Dr.Emin Hacıbalayev, Dr.Emin Allahverdiyev və həkim-rezidentlər 20-21 fevral 2026-cı il tarixlərində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, TƏBİB, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Azərbaycan Kardiologiya Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Kardiometabolik və Nadir Xəstəliklər" konqresində iştirak ediblər.

Konqres çərçivəsində kardiometabolik sindrom, ürək-damar xəstəlikləri, şəkərli diabetin ürək-damar sisteminə təsiri, nadir genetik patologiyalar, erkən diaqnostika və müasir müalicə yanaşmaları mövzularında elmi məruzələr təqdim olunub, klinik protokollar və beynəlxalq təcrübə müzakirə edilib. Mərkəzi Gömrük Hospitalının həkimləri panel müzakirələrində iştirak edərək öz klinik təcrübələrini bölüşüb, multidissiplinar yanaşmanın əhəmiyyəti və pasiyent yönümlü müalicə strategiyaları barədə fikirlərini səsləndiriblər.

Tədbirdə Kardiometabolik risk faktorlarının erkən aşkarlanması, nadir xəstəliklərin diaqnostikasında innovativ metodlar, İnvaziv və qeyri-invaziv müalicə üsulları və Profilaktik tədbirlərin gücləndirilməsi mövzular geniş müzakirə olunub.

***Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova***

## ELAN

DİN BDYPİ tərəfindən Qarayev Aqil Vəli oğlunun adına verilmiş AC 068780 seriyalı sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Koroğluyev Nihad Zakir oğluna 2025-ci ildə verilmiş diplom itdiyinə görə etibarsız sayılır.


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**